cədə həm yaşlı, həm də gənc nəsil arasında sosiallaşma prosesinin qurbanlarına çevrilmiş insanların sayı artır. Hətta mənəvi qanun və əxlaq pozuntuları üzündən keyfiyyətcə fərqli neqativ təmayüllü sosial qruplar təzahür etməyə başlayır. Ümumiyyətlə, cəmiyyətdə qeyri-stabillik, xüsusən əxlaqi-mənəvi qeyri-stabillik bütün viktimoloji proseslər, deviantoloji təzahürlər üçün münbit zəmin hesab edilə bilər.

Cəmiyyətdə müəyyən qrup mikrososium vardır ki, onlar ətrafda ayrı-ayrı adamlar və insan qrupları üçün viktimoloji ocağa çevrilirlər. Bunlar cəzaçəkmə müəssisələrindən qayıtmış insanlardır. Onların azadlıqlarının məhdudlaşdırıldığı yerdə öz gələcək həyatlarını davam etdirmək barədə hansı qənaətə gəlmələri xüsusi söhbətin mövzusudur. Keçmiş məhbuslar sosial-psixoloji iqlimə antisosial və kriminal elementlər əlavə edir, qanun pozuntuluğuna meyl edən, psixi travma almış insanların davranışında viktimoloji təzahürləri dərinləşdirməklə, onları cinayətkarlığa gedən yola sövq edirlər.

Bütün yaş dövrlərində insanın viktimallaşması faktorları sırasında ailənin də əhəmiyyətli rolu vardır. Həyat göstərir ki, assosial həyat tərzinə meyllilik, qanuna və əxlaqa zidd davranış praktikası bir sıra ailələr üçün irsi səciyyə daşıyır. Ailə sülaləsinin çoxillik dəyişməz həyat normasının təzahürü hesab edilə bilər. Ata-babasının dövründən evinə halal çörək gəlməyən, haram tikə ilə yaşamağa adət etmiş və belə həyat tərzini nəsil-nəsil övladlarına mənimsətmiş adamlar viktimoloji komplekslərin daşıyıcılarıdırlar.

Fərdiyyət səviyyəsində viktimallaşmaya xarakteroloji və temperament xüsusiyyətləri, genetik göstəricilər də əhəmiyyətli təsir göstərməkdədir. Şəxsin dəyərliliyə meylləri, onda özünü tənzimetmə və reflekslərin gücü,qətiyyətliliyi, prinsipiallığı və ardıcıllığı, bütövlüyü onu sosiallaşmanın xoşagəlməz, uğursuz nəticələrindən xeyli dərəcədə mühafizə edə bilər.

Cəmiyyətin sosial problemlərinin kəskinliyi ilə viktimoloji proseslərin dinamikası arasında birbaşa bağlılıq mövcuddur. Bu sferada sosial problemlər səbəb olmaqla, böyüyən nəslin labüd sosiallaşması yolunda real və potensial qurbanların meydana gəlməsini şərtləndirir və sosial pedaqogika həmin istiqamətdə effektli konsepsiyalar təklif etməlidir.





## Mehdi Mehdizadənin pedaqoji irsindən istifadəyə dair

**Ramiz Əliyev**
*ADPU-nun müəllimi*

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra təhsil sahəsində aparılan islahatlar bu sistemdə inkişafın istiqamətlərini, məzmununu, elmi-pedaqoji əsaslarını, kadr potensialını, maddi-texniki və s. təchizatını müəyyənləşdirir, islahatın aparılması forma və yollarını, mərhələlərini dəqiqləşdirir. «Təhsil sahəsində islahat proqramı»nda qeyd edilir ki, mövcud təhsil sistemində toplanmış təcrübənin mütərəqqi əsaslarını saxlamaqla müstəqil Azərbaycan Respublikasının strateji məqsədlərini həyata keçirməyə qadir olan intellektual potensialı formalaşdıran yeni təhsil sisteminin qurulması həyata keçirilməlidir.

Qeyd olunmalıdır ki, ötən illərdə aparılmış islahatlar nəticəsində mütərəqqi əhəmiyyət daşıyan xeyli təcrübə toplanmışdır. 60-70-ci illərdə tərbiyəyə kompleks yanaşılması, mənəvi tərbiyənin aktuallaşdırılması, fəal həyat mövqeyinin formalaşdırılması, təlimin məzmununun, təlim üsullarının, dərsin təkmilləşdirilməsi və s. istiqamətlərdə nəzəri və praktik əhəmiyyət daşıyan xeyli işlər görülmüş, səmərəli nəticələr əldə edilmişdir.

Bu zəngin təcrübənin qazanılmasında keçmiş SSRİ-nin Pedaqoji Elmlər Akademiyasının akademiki, pedaqoq alim, 25 ildən artıq Azərbaycan təhsilinə rəhbərlik edən, maarif naziri mərhum Mehdi Mehdizadənin mühüm rolu olmuşdur. Hazırda müasir dövrdə təhsil sahəsində yeni islahatların həyata keçirilməsində iştirak edənlərdən bəziləri məhz Mehdi Mehdizadə məktəbinin yetirmələridir.

Mehdi Mehdizadənin zəngin pedaqoji irsi pedaqoji elmin, təhsil, təlim-tərbiyə işinin, demək olar ki, bütün sahələrini əhatə edir. Bu gün Azərbaycan məktəblərində təlimin məzmunu, təlim üsulları, dərsin təşkili formaları kimi didaktik məsələlər axtarıcılıq meydanına çevrildiyindən, M.Mehdizadə irsində təlim məsələlərinin qoyuluşu təcrübəsindən hazırkı təhsil islahatının həyata keçirilməsində istifadə məqsədi ilə bəzi cəhətləri nəzərdən keçirmək istərdik.

Böyük pedaqoq təlim materialının elmi olmasını, ictimai və təbii hadisələrin, qayda və qanunların dialektik şərhini, qarşıda duran vəzifələrin dərsdə təlim materialları ilə əlaqədar inikasını zəruri şərtlərdən hesab edirdi. O bildirirdi ki, dərslər zəncir həlqəsi kimi bir-birilə bağlı olmalı, mümkün qədər özündən əvvəlki dərsə və ya dərslərə istinad etməklə özündən sonrakı dərs və ya dərslər üçün əsas təşkil etməlidir. Dərsin məzmunu qırıq-qırıq biliklərdən deyil, tam səciyyə daşıyan anlayışlardan, qanun və qaydalardan ibarət olmalıdır. Dərs şagirdlərin yaradıcılığı və fəallığını təmin etməlidir.

Mərhum akademikin didaktik baxışları quru nəzəriyyəçilikdə ifadə olunmur. Bu baxışlar təcrübəyə ötürülmüş elmi ideyaların, didaktik təlimatın təcrübədə özünü doğrultması ilə təsdiqlənir. Bu baxış nəzəriyyə ilə praktikanın vəhdətinə söykənir, biri digərindən qidalanır.

Alim təlim-tərbiyə prosesinin yüksək keyfiyyətini təmin etmək üçün şərait yaradılmasını əsas şərt kimi irəli sürür. Onun fikrincə, əsas şərtlərdən digəri şagirdlərin fəallığının təmin edilməsidir.

M.Mehdizadə öz zamanına görə müasir sayılan dərsin mahiyyətini açmış, ona verilən tələbləri göstərmişdir. 70-80-ci illərin mövqeyini ifadə edən bu tələblər bu gün də aktualdır. Alimin qənaətincə, müasir dərs ənənəvi dərsə nisbətən həm məzmuna, həm də metodlara, priyomlara və vasitələrə görə çox-çox zəngindir, təşkili və keçirilməsi cəhətdən xeyli mürəkkəbdir. O, müəllimdən yalnız bacarıq deyil, həm də gərgin, yaradıcı iş tələb edir. Müasir dərs təlimin müxtəlif növlərinə geniş meydan verilməsi ilə də ənənəvi dərsdən fərqlənir. Ənənəvi dərsdə izahlı reproduktiv təlim, demək olar ki, yeganə təlim növü idi. Müasir dərsdə isə bundan başqa proqramlaşdırılmış təlim, təlimin alqoritmləşdirilməsi, problemli təlim, reproduktiv-axtarıcı təlim, diferensial təlim, təlimin fərdiləşdirilməsi və intensivləşdirilməsi kimi təlim növləri tətbiq edilir. Müasir dərs onunla səciyyələnir ki, burada dərsin hər üç vəzifəsi – təhsil, tərbiyə vəzifələri və proqramın hər bir konkret mövzusu üzrə şagirdlərin inkişafı vəzifəsi layihələndirilir, planlaşdırılır və həyata keçirilir... burada təlimin texniki vasitələri geniş planda tətbiq olunur, dərslər kabinet sistemi üzrə keçirilir (M.M.Mehdizadə. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. B., 1980.). Dərsin səmərəliliyinin təmin olunmasında məzmunla yanaşı təlim metodlarının yeniləşdirilməsini də əsas hesab edən alim təlimin



təkmilləşdirilməsini, təhsil islahatına kompleks yanaşılmasını faydalı sayır.

M.Mehdizadə təlimin məzmununun yeniləşdirilməsində təhsilin fasiləsizliyini və şagirdlərin gələcəkdə də öz biliklərini müstəqil surətdə artırmaq bacarığını formalaşdırma imkanlarını nəzərə almağı vacib sayıb, şagirdə müəyyən qədər faktları mənimsətmək yox, bilik verən məlumatların axınından baş açmaq bacarığı aşılamağı günün didaktik vəzifəsi kimi irəli sürür. Bütün bunlar hazırkı islahat prosesində nəzərə alınası şərtlərdir.

M.Mehdizadə təhsil prosesinin permanent (fasiləsiz) olmasını nəzərə alaraq, məktəblilərə hər şeyi öyrətməyə cəhd etməkdənsə, onlara «öyrənməyi öyrətməyi» vacib bilir. Buradan da şagirdlərdə idrak fəallığının təmin olunması, müstəqil işlərə geniş yer verilməsi məsələləri aktuallaşır.

Təlim metodlarının təkmilləşdirilməsi və yeniləşdirilməsindən bəhs edən alim müqayisə yolu ilə daha səmərəli metodları üzə çıxarır və onların tətbiqi priyomlarını, əməli nəticələrini aşkarlayır. Pedaqoji ədəbiyyatda təqdim olunan təlim metodu qruplarının (informasiya metodları, əyanilik metodları, reproduktiv metodları, axtarıcılıq metodları və s.) adını çəkdikdən sonra müəllif bildirir ki, müasir dərs ənənəvi metodlarla yanaşı axtarıcılığa yönəldilmiş metodlardan da tədricən istifadə etməyi, onların tətbiqinə nail olmağı tələb edir. Məsələn, evristik metoddan, problemli şərh metodundan, tədqiqat metodundan, seminar metodundan, seminar-mühazirə metodundan, referat metodundan, təlim mübahisəsi metodundan və s. (M.M.Mehdizadə. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. B., 1980.).

Mərhum akademikin təlimin müxtəlif metod və priyomlarından dərsdə istifadə edilməsinə dair fikirləri dövrünə görə yenilikçi ruhu ilə seçilir. Qeyd etməliyik ki, həmin ruh bu gün də aktuallığını saxlamaqdadır. Alim qətiyyətlə bildirir ki, təlimin səmərəliliyinin yüksəldilməsi tədris (müəllimin fəaliyyəti kimi) və təlim (şagirdlərin fəaliyyəti kimi) metod və priyomlardan düzgün seçilməsindən və dərsdə onlardan bacarıqla istifadə edilməsindən çox asılıdır (M.M.Mehdizadə. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. B., 1980.).

M.Mehdizadə hələ 60-cı illərdə belə fikirdə idi ki, təlim metodlarını universallaşdırmaq və onlara konkret, şablon yanaşmaq olmaz. Dərsin hər bir mərhələsində mövzuya, məktəblilərin fəallığına, məqsədə və s. görə metod seçmək səmərəli nəticə verir. Müəllif fikrini əyaniləşdirmək üçün şagird-

lərə yeni bilik verərkən seçilə biləcək metodların adlarını çəkir. O yazır ki, elə yeni biliklər vardır ki, onları öyrətmək üçün müəllim izahatdan, şifahi şərhdən, məktəb mühazirəsindən istifadə etməlidir... başqa kateqoriyalı elə biliklər də vardır ki, (məsələn, qrammatika, riyaziyyat, tarix və s. fənlər üzrə bir sıra biliklər) onları müsahibə yolu ilə öyrənmək daha əlverişlidir. Bu, evristik yoldur. Bəzi bilikləri şagirdlər dərslik və digər ədəbiyyat üzərində müstəqil işləmək yolu ilə ala bilərlər. Bu, yeni bilikləri müstəqil olaraq axtarıb əldə etmək yoludur. Bir qrup bilikləri isə şagirdlər müəllimin rəhbərliyi altında bu və ya digər təbiət hadisəsi üzərində müşahidə aparmaq, kimya, fizika və biologiyadan müxtəlif təcrübələr qoymaq yolu ilə əldə edə bilərlər. Buna tədqiqat üsulu deyilir.

Alim fikrini daha da inkişaf etdirərək «kitab üzərində işi, laborator məşğələlərini, müşahidə yolu ilə tədqiqatçılıq metod və formalarını tədris prosesinə cəsarətlə daxil etməyi» vacib bilir. O, həmçinin bildirir ki, şagirdləri düşünməyə, axtarmağa, tapmağa məcbur edən evristik müsahibədən geniş istifadə edilməlidir. Məktəblilərə müstəqil qrafik işləri daha çox vermək, onları mürəkkəb məsələlərin həlli üzərində çalışdırmaq, onlara inşa yazmağı öyrətmək, təcrübəçilik işi vərdişləri aşılamaq lazımdır.

Pedaqoq praktik əmək vərdişlərinin şagirdlərə aşılanması nəticəsində onların idrak fəaliyyətini qüvvətləndirməyin, müstəqil təfəkkür və əmək fəaliyyəti bacarıqlarını formalaşdırmağın, onlara «öyrənməyi öyrətməyin» mümkünlüyünü bildirir.

Alimin belə bir fikri də maraqlıdır ki, təlimin müxtəlif metodlarının tətbiqində heç də dərsi «yüngülləşdirmək», «sadələşdirmək» məqsədə çevrilməməlidir. Çünki məktəblilərin əqli inkişafı məhz şagirdlər çətin tapşırıqlar üzərində işlədikdə, çətinliklər qarşısında qaldıqda təmin edilir (M.M.Mehdizadə. Azərbaycanda xalq maarifinin sürətli inkişafı.B., 1980.).

M.Mehdizadə didaktik priyom kimi dərsdə problem situasiyasının yaradılmasını, əks əlaqənin qurulmasını, tədris prosesinin intensivləşdirilməsini, təlim prosesinin fərdiləşdirilməsini, təlimin müasir texniki vasitələrindən dərsdə istifadə olunmasını zəruri sayır və bunları dərsə verilən tələblər səviyyəsinə qaldırır.

Görkəmli pedaqoq dərsin təkmilləşdirilməsi, təlim məsələləri ilə əlaqədar illərlə düşündüklərini son tədqiqat əsəri kimi əlimizdə olan «Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları» adlı kitabında ümumiləşdirilmişdir. Həmin kitabın nəşrindən ötən 17-18 il ərzində respublikada didaktik məsələləri əhatə edən bu qəbilli heç bir sanballı əsər yaranmamışdır. M.Mehdizadənin həmin kitabda şərh etdiyi nəzəri və təcrübi məsələlər elmi mahiyyətinə görə bu gün də əhəmiyyətlidir.

Fikrimizcə, pedaqoqun «təlim prosesi», «təlim metodu», «metodik priyom» və s. anlayışların şərhi ilə əlaqədar açıqlamaları öz aktuallığını saxlamaqdadır. M.Mehdizadə yazır: «...təlim prosesi müəllim və şagirdlərin müəyyən quruluşa malik olan elə birgə fəaliyyətidir ki, burada bilik, bacarıq və vərdişlər sistemi, təlimin forma, növ və metodları, didaktik, əyani və texniki vəsaitdən ibarət komponentlərdən istifadə edərək şagirdlərin təhsil, tərbiyə və inkişaflarını təmin etməyə yönəldilir» (Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. B.,Maarif, 1982.). «Təlim metodu müəllim və şagirdlərin qarşılıqlı fəaliyyət qaydaları sistemidir ki, müxtəlif vasitələrdən istifadə etməklə təlim prosesində didaktik vəzifələrin həllinə xidmət edir» (Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. B.,Maarif, 1982.). Görkəmli pedaqoq metodik priyomu təlim metodunun ünsürü hesab edir, eyni zamanda müstəqil səciyyə daşıyan priyomların da olduğunu bildirir.

Təlim metodlarını-məlumatvermə metodları, əyanilik metodları, reproduktiv metodlar, axtarış metodları, nəzarət metodları kimi təsnif edən alim təlim metodları qruplarının hər birinə bir neçə öyrətmə və öyrənmə metodlarının daxil olduğunu göstərir. O, təlim metodlarını qrup halında ümumiləşdirərək, hər qrupa bir neçə metodu aid edir. O yazır: «Məlumatvermə metodlarına aşağıdakılar daxildir: 1. Öyrətmə metodları: şərhetmə, izahetmə (aydınlaşdırma), nəqletmə, müsahibə, mühazirə, mətn oxumaq və s. 2. Öyrənmə metodları: dinləmə, dərslik üzərində iş (mətni öyrənmə), biliyi dərk etmə, yadda saxlama, öyrəndiyini təkrar etmə».

Əyanilik metodları dedikdə, aşağıdakılar nəzərdə tutulur: 1. Öyrətmə metodları: əyani vəsaiti göstərmə, təcrübəni (fizika, kimya, biologiya üzrə), təlim filmini nümayiş etdirmə, müasir texniki təlim vasitələrinin tətbiqi, ekskursiyalar və s. 2.Öyrənmə metodları: müşahidə etmək, şəkil çəkmək, dəftərə qeyd etmək, paylanmış didaktik materiallar üzrə iş və s.

Reproduktiv metod qrupuna daxil olunanlar: 1. Öyrətmə metodları: dərk edilmiş materialın təkrarını təşkil etmək, çalışmalar üçün nümunə göstərmək və çalışmalar təşkil etmək (dillərin tədrisi, riyaziyyat və s.), mətni oxumaq, laboratoriya

məşğələlərini keçirmək yollarını şərh etmək, emalatxanalarda, təcrübə tarlasında aparılan işlər haqqında məlumat vermək və s. 2. Öyrənmə metodları: öyrənilmiş materialı möhkəmləndirmək, dərslik üzərində işləmək, müxtəlif yazı işləri icra etmək, məsələ və misallar həll etmək, laboratoriya məşğələləri, qrafik işlər, əmək işləri icra etmək və s.

Axtarış metodlarından daha əsas olanlarını sayaq: 1. Evristik – müsahibə və ya qismən axtarış metodu. 2. Problemli şərh metodu. 3. Tədqiqat metodu. 4. Seminar metodu. 5. Mühazirə-seminar metodu. 6. Referat metodu. 7. Disput metodu. (Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. B.,Maarif, 1982.).

M.Mehdizadə təlim tipləri məsələsinə də toxunmuş və qeyd etmişdir ki, 80-ci illərdə yeni təlim tipləri meydana çıxmış və kütləvi olaraq izahlı-reproduktiv təlim növü ilə birlikdə tətbiq edilməkdədir. O, yeni təlim tipləri kimi aşağıdakıları göstərir: 1. Proqramlaşdırılmış təlim. 2. Diferensial və ya fərdiləşdirilmiş təlim.

Alim yeni təlim tiplərinin ənənəvi təlim növlərindən xeyli üstün keyfiyyətlərə malik olduğunu bildirərək, onların fərqini aydınlaşdırır. Məsələn, o, proqramlaşdırılmış təlimin ənənəvi təlim növündən: a) elmi məlumatın, yəni biliklərin şagirdlərə təlim növündən: a) elmi məlumatın, yəni biliklərin şagirdlərə çatdırılması mənbələrinə görə; b) materialın – biliklərin şagirdlərə təqdim edilməsinə görə; v) şagirdlərin müstəqil iş sisteminə görə; q) təlimin fərdiləşdirilməsinə görə; ğ) şagirdlərin idrak fəaliyyəti üzərində onların bilik, bacarıq və vərdişlərlə silahlandırmaları prosesi üzərində nəzarətə görə; d) şagirdlərin zehni fəaliyyətinin nəticələri haqqında verdikləri cavablar forması. Hər şagirdin biliyinə verilən qiymətlərin ümumiləşdirilməsinə görə fərqli olduğunu göstərir və onların bir-bir dəlilli-sübutlu izahını verir.

M.Mehdizadənin alqoritm və problemli təlim haqqında qənaətləri də bu gün istifadə üçün çox yararlıdır. Onun fikrincə, alqoritm bir tipli olan məsələlərin həll edildiyi qaydalar sistemidir. Problemli təlim isə şagirdlərə yeni bilik vermək üçün təlim prosesində problemli vəziyyətlər yaradıb onu müəllimin məharətlə açması və açdırması sistemini ifadə edən təlimdir.

Təhsil islahatının və zamanın tələbləri baxımından təlimin yeni məzmununun yaradılması, təlim metodlarının təkmilləşdirilməsi və yeniləşdirilməsi, demokratik və humanist prinsiplərin əsas götürüldüyü indiki vaxtda M.Mehdizadə irsindən yaradıcılıqla istifadə ümumi işimizə yalnız xeyir verə bilər.





## Məmməd Tağı Sidqi– 150

## İstedadlı maarifpərvər, məktəbşünas

*Dünyadan köçüb getdi hörmətli böyük Sidqi,*
*Min təəssüf ki, bizdən belə şəxsiyyət getdi.*
*Dağladı ürəkləri o, öz fərağı ilə,*
*Könlümüz munisindən bizləri məhrum etdi.*

**H.Cavid**



Hüseyn Əhmədovun, İsa Həbibbəylinin M.T.Sidqinin pedaqoji fəaliyyəti haqqında sanballı, tədqiqat materialları nəşr edilmiş və geniş oxucu kütləsinə çatdırılmışdır.*

Unudulmaz pedaqoq, xeyirxah insan M.T.Sidqinin anadan olmasının 150 illiyi münasibətilə müasir oxucularımıza məktəbşünas, pedaqoq haqqında müəyyən məlumat verməyi məqsədəuyğun hesab edirik.

Məmməd Tağı Sidqi Səfərov Mədrəsədə oxuduğu illərdən pedaqoji fəaliyyətə, ədəbi-bədii yaradıcılığa xüsusi meyl və maraq göstərmişdir. Azərbaycan xalqının cəhalətdən qurtarmaq yolunu dünyəvi elmlərə yiyələnməkdə görən fitri istedada, çoxçalarlı yaradıcılıq diapazonuna malik olan M.T.Sidqi (1854-1903) pedaqoji fəaliyyəti dövründə nüfuzlu şəxslərin (H.İsmayılov, S.Əskərov) yaxından iştirakı və köməyi ilə Ordubad şəhərində 1892-ci ildə təsis etdiyi «Əxtər» («Ulduz») adlı məktəbdə başlamışdır.

Öz doğma ana dili ilə yanaşı ərəb, fars, rus dillərini bilən, maddi imkanı zəif olan M.T.Sidqi Səfərovun həyat və fəaliyyəti ilə tanışlıqdan belə nəticəyə gəlmək olar ki, onun ədəbi və pedaqoji fəaliyyət sahəsində yüksək uğurlar qazanmasında, ərəb, fars, rus dilinin incəliklərinə dərindən bələd olmasında və habelə öz doğma ana dili ilə yanaşı xatırladılan digər dillərdə yazıb yaratmasındakı nailiyyətlərdə, özünün zəmanəsinin kamil şəxsiyyəti kimi formalaşmasında özünütəhsil, özünütərbiyə ilə məşğul olmasının, fitri istedadının faydası, dəyəri xeyli böyük olmuşdur. Pedaqoq M.T.Sidqi Səfə-

* 6 «Azərbaycan məktəbi» № 2